Müstəqil ictimai-siyasi, publisistik qəzet № 07-08 (1087-1088) 23 fevral 2022-ci il Kredo
Qəzet 1999-cu ilin oktyabrından çıxır

# 26 FEVRAL XOCALI SOYQIRIMI GÜNÜDÜR




*1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərini işğal edərkən Türk etnosunu soyqırıma məruz qoymuşdur.*

*Bu faciə Dağlıq Qarabağ münaqişəsi zamanı baş vermiş ən dəhşətli hadisələrdən biridir. Bu soyqırım zamanı Azərbaycan xalqı yüzlərlə şəhid vermişdir.*

*1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri SSRİ dövründən Xankəndi (Stepanakert) şəhərində yerləşən 366-cı motoatıcı alayın zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Misli görünməmiş faciə törətmişdir. Hücumdan əvvəl, fevralın 25-i axşam şəhər toplardan və ağır artilleriyadan şiddətli atəşə tutuldu.*

*Nəticədə, fevralın 26-ı səhər saat 5 radələrində Xocalı tam alova büründü. Mühasirəyə alınan şəhərdə qalmış təqribən 2500 nəfər xocalılı Ağdam rayonunun mərkəzinə çatmaq ümidi ilə şəhəri tərk etdi. Amma bir günün içində yer üzündən silinən şəhəri tərk edən 2500 Xocalı sakinindən 613-ü düşmən gülləsinə tuş gəlib qətliamın qurbanı oldu. Bu soyqırım nəticəsində 63 uşaq, 106 qadın, 70 qoca və qarı olmaqla - 613 nəfər Xocalı sakini qətlə yetirildi, 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirdi. Düşmən gülləsinə tuş gəlib yaralanan 487 nəfərdən 76-sı uşaq idi. 1275 xocalılı əsir, 150 xocalılı itkin düşdü. Dövlətin və əhalinin əmlakına 1 aprel 1992-ci il tarixinə olan qiymətlərlə 5 mlrd. rubl dəyərində ziyan vurulmuşdur.*

*Bu hadisə Azərbaycanda və qardaş Türkiyədə "Xocalı qətliamı", "Xocalı soyqırımı" kimi anılır. Ermənistanda isə bu əməliyyat "Xocalı döyüşü","Xocalı hadisəsi" terminləri ilə ifadə olunur. Qərb və dünya mətbuatı "Xocalı qətliamı" (ing. "Khojaly Massacre", fr. "Massacre de Khodjaly") terminindən istifadə etməyə üstünlük verir.*

## Bir şairin Xocalı tablosu

Aida Adıgözəl adlı,
bəxtinin qaralığı gözəl
bir şairənin
xalı, gəbə timsallı
şeirini oxudum.
Çeşnisini
gözlərimin önünə çəkib,
dərd hanasını
ürəyimdə toxudum.
Azərbaycan qan-qırmızı
xalılar, gəbələr ölkəsidir,
Bu da bir şairənin
Xocalı kölgəsidir.
* * *
Şeir oxudum
Qan süzülürdü misralardan.
Yaralı sözlər
ruhumun ağrısına dönüb
varlığıma çökürdü.
Dəhşətin üstünə
örtük çəkmişdi qardan,
Deyəsən,
Tanrı gördüyündən
xəcalət çəkirdi.

Gecədən çıxmış səhər
zorlanmış gəlin kimi
dünyaya gəlişinə peşman idi.
Bəxti çiliklənmiş güzgü kimi
qar üstündən göz-göz baxırdı.
Qənim kəsilmişdi taleyinə
bu bəxt -
yağıdan betər düşmən idi.
Dünyanın kar qulağından,
kor gözlərindən
biganəlik seli axırdı.

...Yaddaşımın
sinəsini sökdü
Aida Adıgözəlin
Xocalı tablosu...
Bir qərinəlik
vaxtın içindən
qisasa yol çəkdi,
Şair iztirablarının
ağrılı-acılı tablosu.

Aida Adıgözəl adlı,
bəxtinin qaralığı gözəl
bir şairənin
xalı, gəbə timsallı
şeirini oxudum.
Çeşnisini
gözlərimin önünə çəkib,
dərd hanasını
ürəyimdə toxudum.

...Azərbaycan
qan-qırmızı xalılar,
gəbələr ölkəsidir,
Bu da bir şairənin
Xocalı kölgəsidir.

*Əli Rza XƏLƏFLİ*
*18.02.2019*